SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi (İB) “Esyasoft Holding” LTD şirkəti ilə birgə "Ağıllı Qaz Şəbəkəsi İdarəetmə Sistemi" layihəsinin icrasına başlayıb. Layihə 2.5 milyondan çox abonenti əhatə edən qaz paylama infrastrukturunun rəqəmsal transformasiyasını nəzərdə tutur. Görüləcək işlər çərçivəsində qaz paylama şəbəkəsi mərhələli şəkildə rəqəmsallaşdırılacaq və yeni nəsil "rəqəmsal" qaz idarəetmə sistemi tətbiq olunacaqdır.

"Ağıllı Qaz Şəbəkəsi İdarəetmə Sistemi" layihəsinin əsas məqsədi abonentlərə qaz istehlakını izləmək, daha dəqiq hesablamalar aparmaq və rəqəmsal xidmətlərdən rahat istifadə imkanı yaratmaqdır. Layihə Azərbaycanda qaz paylama sisteminin qısa zamanda rəqəmsallaşdırılmasını, əməliyyat səmərəliliyinin artırılmasını və beynəlxalq enerji idarəetmə standartlarına uyğunlaşdırılmasını hədəfləyir.

COP29 çərçivəsində SOCAR ilə "Esyasoft Holding” LTD şirkəti arasında imzalanmış əməkdaşlıq sazişinin icrası çərçivəsində həyata keçirilən "Ağıllı Qaz Şəbəkəsi İdarəetmə Sistemi" layihəsi ölkənin davamlı inkişaf prioritetlərinə, rəqəmsal iqtisadiyyatının inkişafı strategiyasına uyğun olmaqla “Azəriqaz İB”-nin rəqəmsal transformasiya hədəflərinə mühüm töhfə verəcək. Ətraf mühit dayanıqlılığı prinsiplərinə əsaslanan layihə qaz itkilərinin azaldılması və karbon emissiyalarının minimuma endirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Layihə abonentlər üçün bir sıra əhəmiyyətli üstünlüklər təqdim edir:

- İstehlak həcminin **daha yüksək dəqiqliklə** ölçülməsi, mobil tətbiq və onlayn platformalar vasitəsilə **gündəlik izlənməsi**;
- Müştəri müraciətlərinin **süni intellektin köməyi** ilə anında cavablandırılması;
- Qaz şəbəkəsində potensial **təkmilləşdirmə imkanlarının** vaxtında və effektiv şəkildə müəyyən edilməsi;
- Texniki proseslərdə **dayanıqlılığın təmin olunması üçün operativ tədbirlərin görülməsi;**
- Sayğac məlumatlarının avtomatik ötürülməsi nəticəsində **ənənəvi oxuma proseslərinin optimallaşdırılması və mərhələli şəkildə aradan qaldırılması**, təhlükəsizlik səviyyəsinin yüksəldilməsi və sistem etibarlılığının möhkəmləndirilməsi

Quraşdırma prosesi əhali abonentləri üçün tamamilə ödənişsiz olmaqla, sadə və operativ şəkildə həyata keçiriləcək. Rəsmi bildirişdən sonra bildirişdə göstərilən müddət ərzində abonentlər tərəfindən şərait yaradılacağı halda mütəxəssislərimiz 30–45 dəqiqə ərzində yeni ölçmə mexanizminin quraşdırma işlərini aparacaq və istifadə qaydaları barədə ətraflı məlumat təqdim olunacaq.

"Azəriqaz" İB-nin Baş direktoru Azər Məmmədov layihənin əhəmiyyətini vurğulayaraq bildirib:

*"Bu təşəbbüs texnoloji yenilənmə ilə yanaşı vətəndaşlara göstərilən xidmət keyfiyyətində yeni mərhələnin başlanğıcıdır. Rəqəmsal həllər sayəsində biz daha səmərəli, təhlükəsiz və dayanıqlı qaz təchizatı sistemini formalaşdırırıq. Qarşıdakı illərdə bu layihə Azərbaycanın qaz təchizatı infrastrukturunun rəqəmsal transformasiyasının əsas dayaqlardan birinə çevriləcək."*

Qeyd edək ki, sözügedən layihənin icrası, həmçinin yerli mütəxəssislərin peşəkar inkişafına, qabaqcıl texnologiyaların ölkədə tətbiqinə və milli texnoloji potensialın gücləndirilməsinə mühüm töhfə verəcək.